*Azərbaycan Milli Elmlər Akademiyası-70*

# Əsas hədəf dünya kitabxana-informasiya sisteminə inteqrasiyadır

**Əsrimiz informasiya əsridir. Bununla öyünməyə dəyər. Çünki əldə edilən tərəqqi, kommunikasiya imkanları insanları birləşdirir, onlara daha sıx ünsiyyət qurmağa şərait yaradır. Bu gün istənilən informasiyanın əldə edilməsi üçün vasitələr də çeşidli və rəngarəngdir. Lakin dünyanı, tarixi, elmi nailiyyətləri quran, yaradan insanların böyük əksəriyyəti üçün informasiyanın əldə edilməsində ən etibarlı mənbə məhz kitab sayılır. Yeni müasir informasiya texnologiyaları ilə ən kəskin rəqabət şəraitində də kitab sosiomədəni amil kimi öz əhəmiyyətini qorumaqdadır. Bu baxımdan hər bir millət, xalq cəmiyyət üçün mədəniyyət və bilik mənbəyi sayılan kitabxanaların inkişafı, onların maddi-texniki bazasının yaxşılaşdırılması, xidmət səviyyəsinin yüksəldilməsi istiqamətində dövlətimizin gördüyü işlər tarixi əhəmiyyətə malikdir.**

**Özünün 70 illiyini qeyd etməyə hazırlaşan Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının yeni binasının tikilməsi, onun fəaliyyət istiqamətinin genişləndirilməsi məqsədilə İnformasiya Resursları Mərkəzinin yaradılması zamanın tələbi, qloballaşan dünyanın diqtəsidir.**



Onu da qeyd edək ki, 2014-cü il may ayının 5-də AMEA-nın Mərkəzi Kitabxanasının yeni binasının rəsmi açılışı olmuş və dövlət başçısı cənab İlham Əliyev açılış mərasimində iştirak etmiş, burada görülmüş işlərlə tanış olan Prezident öz tövsiyə və tapşırıqlarını vermişdir. Mərkəzi Kitabxananın ilk oxucu kartı da məhz dövlət başçısına təqdim olunmuşdur.

Mərkəzi Kitabxananın yeni binası Prezident İlham Əliyevin 2011-ci il 29 aprel tarixli sərəncamına əsasən tikilmişdir. Həmin ilin noyabrında dövlətimizin başçısı kitabxananın yeni binasının təməlini qoymuşdur.

Azərbaycan Milli Elmlər Akademiyasının 70 illiyi ərəfəsində Mərkəzi Elmi Kitabxananın yeni inşa edilmiş binası bu günlərdə 7 aylıq köçürülmə prosesindən sonra yenidən fəaliyyətə başlayıb. Bu tarixi hadisə ilə əlaqədar kitabxananın direktoru Leyla İmanova ilə görüşüb söhbət etmişik.

Son vaxtlar AMEA-da struktur dəyişikliyi həyata keçirilir ki, bunun da məqsədi akademiyanın fəaliyyətini mövcud qanunvericiliyin tələblərinə uyğunlaşdırmaq, hüquqi-təminat bazasını möhkəmləndirmək və idarəetmə sistemini təkmilləşdirməkdən ibarətdir. Leyla xanım bu istiqamətdə görülən işlər barəsində danışaraq dedi ki, 2014-cü ilin may ayında AMEA-nın illik hesabatında da bir sıra önəmli qərarlarla yanaşı, AMEA-nın yeni Nizamnaməsi də qəbul edildi. Yeni Nizamnaməyə uyğun olaraq elmi müəssisə və təşkilatlara müstəqillik və özünüidarəetmə üçün daha geniş hüquqi əsaslar verildi. Adıçəkilən tədbirdə prioritetlər sırasında elm sahələri və elm ilə təhsil arasında inteqrasiyanın gücləndirilməsi göstərildi. Zahirən sakit təsir bağışlayan kitabxana əslində canlı infoorqanizm kimi aparılan dəyişikliklərə təkan verən və sürətləndirən qurumdur. Bu baxımdan Mərkəzi Elmi Kitabxanaya AMEA rəhbərliyi tərəfindən geniş imkanlar verildi — qısa müddətdə MEK-in yeni Nizamnaməsi və strukturu təsdiq olundu, genişləndirilməkdə olan texniki imkanlar, kitabxananın təcrübəli kadrları və əlavə cəlb edilən insan resursları kitabxanada zamanın tələblərinə uyğun işin qurulmasına şərait yaratdı.

Son zamanlar dünyanın aparıcı kitabxanaları fəaliyyətlərini sadəcə, kitab toplumunun nizamlanması və oxucunun istifadəsinə verilməsi istiqamətində deyil, dünyanın bütün nöqtələrindən informasiya axtarışında olan internet istifadəçilərinin, oxucu və araşdırıcılarının müxtəlif tipli sorğularının cavablandırılması, oxucu auditoriyasının, eləcə də topladığı informasiyanın ölkə sərhədlərindən kənara, dünya Kitabxana —informasiya məkanına inteqrasiyası istiqamətində qurur. Bu fəaliyyət isə ənənəvi kitabxana idarəçiliyinə müasir informasiya texnologiyalarının hazırlanıb tətbiq edilməsini tələb edir. İnformasiya Resursları Mərkəzi (İRM) də bu səbəbdən yaradılmış, dünya kitabxanalarının mənfi və müsbət təcrübəsi öyrənilmiş, kitabxananın bütün imkanları, əldə etdiyi təcrübə qiymətləndirilmiş və İRM vasitəsilə islahatlara başlanılmışdır. Onu da qeyd edim ki, bu günədək MEK-in tərkibində informasiya texnologiyaları, informasiya resursları və layihələrin idarə edilməsinə çox az yer verilirdi. Yeni strukturda bu üç istiqamət hər biri müstəqil şöbə olmaqla İnformasiya Resursları Mərkəzi adı altında birləşdilər.

Dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, hər bir ölkənin davamlı və dayanıqlı inkişafının əsas təminatçısı elm, təhsil və iqtisadiyyatı əhatə edən sistemli siyasətdir. Bu siyasətin aparıcı qüvvəsi isə informasiya telekommunikasiya texnologiyalarıdır ki, o da həyatın bütün sahələrini əhatə edir. Azərbaycanda rabitənin, elektron avadanlıqları və informasiya texnologiyaları sektorunun inkişafı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, 1970-80-ci illərdə ümummilli liderin rəhbərliyi ilə Elmlər Akademiyasında, ali təhsil müəssisələrində elektronika, avtomatika və hesablama texnikası üzrə kadrlar yetişdirilir, elektron avadanlıq istehsal edilən müəssisələr tikilirdi. İKT sahəsində fəaliyyət bu gün ulu öndərin müəyyən etdiyi strateji xətt üzrə uğurla davam etdirilir. Ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın regionun İKT sahəsində aparıcı ölkəsinə çevrilməsi üçün məqsədyönlü dövlət siyasəti həyata keçirilir. Bu islahatların kitabxanaların inkişafına təsirindən danışan həmsöhbətim belə dedi:

—Bir tərəfdən adını çəkdiyiniz islahatlar kitabxanaların inkişafını stimullaşdırır və axtarışa sövq edir - kitabxanalar informasiyanın bu dərəcədə əlçatan olduğu bir ölkədə əlbəttə ki, onun daha maraqlı, daha tətbiqi formatda, informasiya yükü baxımından həcmli materialın içində asanlaşdırılmış axtarış sistemlərini qurmağı, oxucular üçün dəyərli ola bilən məlumat mənbələri və onların təqdimat formatlarını axtarmağa məcbur edir. İkinci tərəfdən islahatlar yeniliklər üçün texniki şərait yaradır, avadanlıqlar, texnologiyalar Azərbaycana gətirilməklə yanaşı, Azərbaycanda da istehsal olunur və istifadəyə verilir. Bu informasiya texnologiyalarının çoxtərəfli inkişafına və nəticədə, Azərbaycanın inkişafına əsaslı şərait yaradır. Azərbaycanda Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin yaradılması, 2014-2020-ci illər üçün "Azərbaycan Respublikasında İnformasiya Cəmiyyətinin İnkişafına dair Milli Strategiya"nın təsdiq edilməsi, "Elektron hökumət", beynəlxalq yayım, kosmik müşahidə və başqa bu tipli xidmətlərin göstərilməsi məqsədilə peyk şəbəkəsinin, "Data Mərkəz" və Yüksək Texnologiyalar parkının yaradılması və bu kimi başqa layihələr iqtisadi və sosial sektorlarda inkişafla yanaşı, Azərbaycanda tamamilə yeni sektor kimi formalaşmış informasiya sektorunun inkişafına yeni hədəflər qoyur və əldə olunmuş texniki imkanları kitabxanalarda texnoloji yeniliklərə çevirməyə imkan verir.

Bu gün akademiyanın istifadəsinə verilən Mərkəzi Elmi Kitabxananın yeni binası elm adamlarına dünya kitabxanalarının zəngin fondlarından faydalanmağa imkan yaradır, bütün struktur vahidlərinin məqsədyönlü fəaliyyəti nəticəsində informasiya idarə olunan və əlaqələndirilə bilən strateji resursa çevrilir.

İnformasiya Resursları Mərkəzi 3 şöbəni özündə birləşdirir:

İnformasiya Texnologiyalarının Hazırlanması və Tətbiqi Şöbəsi — kitabxana və xidmət, həmçinin, daxili idarəetmə proseslərinin avtomatlaşdırılması sahəsində zəruri olan müasir texnologiyaların, proqram təminatlarının hazırlanması, mövcud texnologiyaların və proqram təminatlarının tətbiqi və fəaliyyətinə nəzarət istiqamətində fəaliyyət göstərir.

Milli Rəqəmsal Yaddaş Şöbəsi —Azərbaycanın milli, mədəni, elmi irsinin mərkəzləşdirilmiş və sistemləşdirilmiş şəkildə qorunub saxlanılması, Azərbaycan və dünya araşdırıcılarının istifadəsinə verilməsi, eləcə də gələcək nəsillərə ötürülməsi məqsədilə daim yenilənən vahid rəqəmsal bazasının yaradılması və təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə məşğuldur.

İnnovativ Layihələr Şöbəsi — Kitabxana və informasiya resursları sahəsində proseslərin optimallaşması və səmərəliliyinin yüksəldilməsi məqsədi ilə innovativ layihələri işləyib hazırlamaq və icrasını həyata keçirmək istiqamətində fəaliyyət göstərir.

Mərkəzin kadr potensialının yaxşılaşdırılması,işçi qrupunun formalaşdırılması isitiqamətində də müəyyən işlər görülür.

Mərkəzi Elmi Kitabxanaya yeni işçilər qəbul ediləndə əsas meyar kimi tərəfimizdən keçirilən testin cavablandırılması kitabxana işini bilməsi, informasiya texnologiyaları sahəsində biliklərinin, ən azı Avropa kompüter bilikləri standartlarına cavab verməsi, ilk baxışdan profilinə uyğun gəlməyən digər şöbələrdə çarpazlaşma prinsipi ilə çalışmağa hazırlıqlı olması, işgüzar münasibətlərin qurulmasında şəxsi kommunikasiya imkanları, müəssisə və dövlət maraqlarına üstünlük verməsi əsas şərt kimi götürülür.

Əsas hədəfimiz isə dünya kitabxana-informasiya sisteminə bərabərhüquqlu və bərabər imkanlı tərəfdaş kimi inteqrasiya olunmaqdır.

Biz də bu istiqamətdəki fəaliyyətində kollektivə uğurlar diləyirik!..

**Zümrüd QURBANQIZI,**
**"Respublika".**





